*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (3) 2025*

***Derleme Makale | Review Article***
***Geliş tarihi |Received:01.01.2025***
***Kabul tarihi |Accepted:25.05.2025***
***Yayın tarihi |Published:25.06.2025***

**Khalida Ibrahimova**

***https://orcid.org/0009-0002-4213-3920***
*Doctor of Philosophy in History. Azerbaijan State Pedagogical University, Azerbaijan, xalideibrahimova88@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Ibrahimova, K. (2025). İkinci Dünya Müharibəsinin Azərbaycanlı Qadınları (Araşdırmalar, Nəticələr). *Akademik Tarih ve Düşünce Dergisi, 12* (3), 654-677.

# İkinci Dünya Müharibəsinin Azərbaycanlı Qadınları (Araşdırmalar, Nəticələr)

**Öz**

*Materialda müharibənin başlanması ilə hərbi və mənəvi səfərbərlik, azərbaycanlı qadınlarının ön cəbhədəki qəhrəmanlığı, arxa cəbhə əməkçilərinin əmək fədakarlığı, qələbənin əldə edilməsində onların rolu, xüsusilə cəbhənin yanacaqla təmin edilməsində Bakı neftçilərinin fədakar əməyi və digər məsələlər arxiv materialları, statistik külliyyatlar və mətbuat materialları əsasında araşdırılmış, problemlər yeni ideoloji bucaqdan əsaslandırılmışdır. Məqalə İkinci dünya müharibəsinin başa çatmasından 80 il yaxın vaxt keçməsinə baxmayaraq Azərbaycan xalqı qələbənin əldə edilməsində və dünya xalqlarını faşizm təcavüzündən xilas edilməsində canlarını qurban vermiş həmvətənlərimizin parlaq xatirəsini, Azərbaycan xalqının göstərdiyi döyüş qəhrəmanlığını, xalqımızın arxa cəbhədəki fədakar əmək rəşadətini yaşatnmaqla vətənpərvərlik tərbiyəsinə xidmər edir.*

***Açar sözlər:*** *Müharibə, Döyüşçü, Tibb Bacısı, Yaralı, Hərbi Hospiral*

# Azerbaijani Women in World War II (Research, Results)

***Abstract***

*In the article, the military and moral mobilisation with the outbreak of the war, the heroism of Azerbaijani women at the front, the labour sacrifice of workers behind the front, their role in achieving victory, especially the selfless labour of Baku oil workers in supplying fuel to the front and other issues are investigated on the basis of archival materials, statistical collections and press materials, and the problems are substantiated from a new ideological perspective. The article serves patriotic education by keeping alive the bright memory of our compatriots who sacrificed their lives in achieving victory*

BY NC
Creative Commons Licence

*and liberating the peoples of the world from fascist aggression, the war heroism shown by the Azerbaijani people and the courage of selfless labour of our people behind the front.*

***Keywords**: War, Warrior, Nurse, Wounded, Military Hospital*

## Giriş

İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Hitler Almaniyasının Polşaya hücumu ilə başladı, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatdı. Avropada öz işğallarını həyata keçirən Hitler Almaniyasının 1941-ci il iyunun 22-də SSRİ üzərinə hücuma keçməsi ilə başlanan sovet-alman müharibəsi 1945-ci il mayın 9-da Hitler Almaniyasının məğlubiyyəti ilə nəticələndi. Sovet tarixşünaslığına bu müharibə Böyük Vətən müharibəsi, 9 may isə Faşizm üzərində Qələbə günü kimi düşmüşdür. 2025-ci ilin may ayında faşizm üzərində qələbənin 80 illiyi tamam olur. Müharibədə 50 milyondan çox insan həlak oldu, 100 milyondan çox insan yaralandı və şikəst qaldı. Sovetlər birliyi müharibədə 27 (Çapay Sultanova görə 29 milyon (Sultanov, 2016) milyon nəfər itki verdi. Bu baxımdan faşizm üzərində qazanılmış qələbədə nə Ali Baş Komandanın, nə sıravi döyüşçünün, nə də arxa cəbhədə çalışan əməkçinin rolunu azaltmadan qətiyyətlə deyə bilərik ki, qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqlardır. Sovet İttifaqının Böyük Vətən müharibəsinin tarixi Azərbaycan torpağına, doğma el-obaya məhəbbət bəsləyən Azərbaycan igidlərinin həyat salnaməsi, "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarına tabe olaraq gecə-gündüz işləyən, malını, pulunu, yorğanındakı yununu, hətta nişan üzüyünü cəbhəyə verən Azərbaycan qadınının tarixidir.

Dövrün fundamental tədqiqatında, problemin ayrı – ayrı məsələlərinin araşdırılmasında iblioqrafiq göstəricilər və Böyük Vətən müharibəsinin ensiklopediyası, müharibədə qələbənin 20, 25, 30, 35, 40, 50 illiyinə həsr olunan konfranslarının materialları mühüm əhəmiyyətə malikdir (Velikaya Oteçestvennaya voyna 1941-1945. Ensiklopediya (1985); Velikaya pobeda. 1941-1945. (1979); Velikiy podviq (1970).

Düşmən arxasında xalq mübarizəsi probleminə Azərbaycan tədqiqatçıları da böyük maraq göstərmişlər. M. Alıcanovun 1975-ci ildə nəşr olunan "Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər)" kitabı nisbətən az tədqiq olunmuş sahəyə, Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakına həsr olunub (Alıcanov, 1975). Giriş və 4 fəsildən kitabda müəllif Q. Mədətov, Q. Mehdiyev, Ə. Bağırzadə, M. Abbasov, T. Novruzov, V. A. Belyayeva, Ə. Kərimov, C. Hüseynov, A. Sərkisovun 1941-1945-ci illər müharibəsinə həsr etdikləri əsərləri, həmçinin mövzuya aid yazılmış K. Tskitişvilinin, M. Seyidovun, C. Həkimovun, V. Seyidovun, C. Rəfiyevin, Q. Jilyayevin, S. Məmmədovun, İ. Qasımovun kitablarını tarixşünaslıq baxımdan təhlil etmişdir. Kitabın giriş hissəsində müəllif

həm də mövzuya dair xarici ölkələrin tarixçilərinin - ABŞ ordusunun keçmiş polkovniki Çarl V. Hostlerin 1957-ci ildə Nyu-Yorkda nəşr etdirdiyi "Türkizm və Sovetlər", AFR tarixçiləri Ç. Diksonun, O. Gelbrunnun, Middeldorfun, L. Renduliçin, D. Karovun əsərlərinə öz münasibətini bildirmişdir.

Sabir Məmmədovun "Azərbaycanın qəhrəman qızları" əsərində təyyarəçi qızlar Leyla Məmmədbəyova, Sona Nuriyeva və Züleyxa Seyidməmmədovanın, Sevastopolun müdafiəsində igidlik göstərən Əsmər Həsənova, Kübra Məmmədova, Lətafət Məmmədova və Pakizə Vahabovanın 44-cü diviziya tərkibində döyüş qəhrəmanlığı (Məmmədov, 1988). 416-cı diviziyanın 152 döyüşçü qadınından 45 nəfəri "Qızıl Ulduz" ordeni, 42 nəfəri isə "İgidliyə görə" və "Döyüş xidmətlərinə görə" medalları ilə təltif edildiyini haqqında yazılar maraqla oxunur (Məmmədov, 1988) . Əsərdə ilk "Qırmızı ulduz" ordeni ilə təltif edilmiş şəfqət bacısı Böyükxanım Mircavadova, tibb bacısı Zəhra Səlimova, snayperçi Ziba Qəniyeva və Aliyə Azərli, 56-cı ordunun 17-ci atıcı diviziyasının həkimləri Qumru və Qönçə Qaragözova bacıları, partizan hərəkatında iştirak edən Aliyə Rüstəmbəyova, Fatma Səlimova və Gülsüm Əliyeva, İtaliyada Mədinə Əhmədova, Sovet qoşunlarının tərkibində Yaponiyaya qarşı döyüşən Təzəxanım Əzimzadə, Cəvahir Abbasova, Mülayim Cəfərova və Fəridə Vəzirovanın igidliyi haqqında məlumatlardan (Məmmədov, 1988) gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində istifadə oluna bilər. Azərbaycan tarixinin 1941-1945-ci müharibəsi dövrünün müxtəlif problemlərini, o cümlədən azərbaycanlıların partizan hərəkatında iştirakını tədqiq etmiş tarixçilərin əsərlərinin tarixşünaslıq baxımından təhlili göstərir ki, bu əsərlər müxtəlif problemlərin, hadisələrin faktlar əsasında öyrənilməsi baxımından əhəmiyyətli olsa da, hakim kommunist partiyasının göstərişlərinə, müəyyən etdiyi kriteriyalara uyğun olaraq birtərəfli tədqiq edilmişdir.

## 1. Müharibənin Başlaması: Çağırış və Səfərbərliyin Təşkili

1941-ci il vəziyyətinə görə Azərbaycan SSR-nin əhalisi 3,4 milyon nəfər olmuşdur. Müharibə başlayanda orduya səfərbərlik respublikada ümumxalq hərəkatına çevirilmiş, minlərlə oğlan və qız hərbi komissarlıqlara ərizə ilə müraciət edərək cəbhəyə getmişlər. "Bakı zəhmətkeşi" qəzetinin 2 iyul 1941-ci il tarixli "1200 ərizə" məqaləsində 1200 fəhlə, evdar qadın və qulluqçu sanitar dəstələrə yazılmaq və cəbhəyə göndərilməsi xahişi ilə ərizə verdiyi bildirilirdi (Bakinskiy raboçiy, 1941, 2 iyul).

1941-1945-ci illərdə Azərbaycan SSR-dən 719.718 nəfər səfərbərliyə alınmış,

Qadınların sovet silahlı qüvvələrinə cəlb edilməsi ilk növbədə müharibənin əvvəlində çox böyük insan itkiləri ilə bağlı olmuşdur. Dövlət Müdafiə Komitəsinin qərarları əsasında 1942-ci ildə qadınların üç kütləvi səfərbərliyi həyata keçirilmiş, ilk mərhələdə 5-7 sinif təhsili olan 18-

25 yaşlı subay qızlar səfərbər olunmuşdur. Dövlət Müdafiə Komitəsinin 25 mart 1942-ci il tarixli fərmanına əsasən Qırmızı Ordunun telefon və radio operatorlarını, hava kəşfiyyatçılarını və digər vəzifələri əvəz etmək üçün ölkənin hava hücumundan müdafiə bölmələrinə 100.000 qız səfərbər edilmişdir.

İkinci səfərbərlik Dövlət Müdafiə Komitəsinin 15 aprel 1942-ci il tarixli qərarına uyğun olaraq elan olunmuş və 30 min qadın rabitə qoşunlarında xidmət etmək üçün cəbhəyə göndərilmişdi. Qadınlar cəbhəyə səfərbər olunan kişi radio operatorlarını, sahə poçt işçilərini, dispetçerləri, teleqraf texniklərini, kargüzarları, tərtibatçıları, katibləri və sanitarları əvəz etmişdilər.

Qadınların cəbhəyə üçüncü səfərbərliyi SSRİ Dövlət Müdafiə Komitəsinin 18 aprel 1942-ci il tarixli qərarı ilə həyata keçirilmişdi. İnzibati və təsərrüfat xidmətinin bölmələrinə (anbar müdiri, sürücü, traktorçu, aşpaz, anbardar, mühasib), həmçinin əvvəlki çağırışı tamamlamaq məqsədilə 40.000 qadın səfərbər olunmuşdu. Səfərbər edilmiş qadınların bəziləri hərbi xidmətə çağırıldıqdan dərhal sonra, digərləri isə 1,5-2 ay sonra cəbhəyə göndərilmişdilər.

1943-cü ilin oktyabrında SSRİ-nin mərkəzi artilleriya bazalarında və anbarlarında işləmək üçün 18-45 yaş arasında daha 4200 qadın səfərbər olunmuş, SSRİ Dövlət Müdafiə Komitəsinin 16 may 1944-cü il tarixli qərarına əsasən isə aşpaz, paltaryuyan, rabitəçi və tibb bacısı vəzifələrini tutmaq üçün 20-35 yaş arasında daha 25 min qadın "könüllü olaraq" hərbi xidmətə yollanmışdır. Ümumilikdə 1941-1945-ci illərdə 490.235 qadın hərbi xidmətə çağırılmış, omlardan 177.065 nəfəri hava hücumundan müdafiə bölmələrinə, 41.886 nəfəri rabitə bölmələrinə, 40.209 nəfəri Hərbi Hava Qüvvələrinə, 14.460 nəfəri qadın birləşmələrinə və məktəblərə, 18.785 nəfəri avtomobil hissələrinə, 28.500 nəfəri aşpazlıq kurslarına, 41.224 nəfəri hərbi – sanitar hissələrə və qurumlara, 20.889 nəfər Hərbi Dəniz Qüvvələrinin birlik və qurumlarına, 70.458 nəfəri Yerli Hava Hücumundan Müdafiə Qüvvələrinin hissələrinə, 29.259 nəfəri cəbhə, rayon və ordu birləşmə və qurumlarına göndərilmişdir. 1945-ci il yanvarın 1-nə olan məlumata görə qadın hərbi qulluqçuların 70.647 nəfəri zabit, 113.990 nəfəri çavuş, 276.809 nəfəri əsgər, 2.057 nəfəri tələbələr və kursantlar olmuş (Alizade, http://vesti. az/news/243709), 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə istehsalata gəlmiş, hərbi hissələr üçün 15 min tibb işçisi və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü, 6.097 nəfər pulemyotçu, 7.796 nəfər əl pulemyotçusu, 19.290 nəfər avtomatçı, 102.343 nəfər snayper, 29.509 nəfər rabitəçi - 222 min qadın döyüşçü mütəxəssis hazırlanmışdı (Məmmədov, 1988, s.16). Qadınlar kütləvi hərbi-vətənpərvərlik təşkilatı "Osaviaxim" vasitəsilə də könüllü olaraq hərbi təlimə cəlb olundular. Qızıl Aypara Cəmiyyəti təkcə Bakıda 6 min tibb bacısı və 13 min sanitar işçi hazırlamışdı.

Keçmiş cəbhəçi Fəridə Vəzirovanın yazdığı kimi "Qısa hazırlıqdan sonra topçu-zenitçi, rabitəçi, radist, projektorçu, hərbi aqreqatların sürücüləri, siyasi işçi və sair peşələrə yiyələnmiş minlərlə qız hərbi and içərək hissələrə göndərildilər" (Azərbaycan qadını, 1975, №8). İkinci dünya müharibəsi illərində 91 nəfər qadın Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, onlardan 86 nəfəri bu adı 1941-1945-ci illərdə almışlar.

## 2. Döyüş Cəbhələrində

Müharibə illərində azərbaycanlı qızlar Pakizə Manafova, Dürrə Məmmədova, Əsmər Həsənova, Zərifə Mustafayeva, Lətafət Məmmədova, Ziynət Manafova, Məlakə Qasımova, Zərnişan İmamverdiyeva, Əsmayə Məmmədova, Lətifə Sadıqova, Mülayim Cəfərova və başqaları Leninqrad (indiki Sankt-Peterburq), Moskva, Sevastopol, Odessa, Stalinqrad, Kiyev və digər şəhərlərin azad edilməsində, Qafqaz uğrunda gedən döyüşlərdə, Avropa xalqlarının faşizm işğalından azad olunmasında, partizan əməliyyatlarında, Berlin uğrundakı döyüşlərdə igidlik göstərdilər. Tibb leytenantı Pakizə Manafova Azov şəhəri yaxınlığında, hərbi həkim Şəfiqə Əhədova Qara dənizdə, Simurx Hacıyeva Kerç döyüşlərində (Sarkisov, 1976), Pakizə Vahabova Sevastopol uğrunda, Sara Yaqubova Çexoslovakiya uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak oldular (Sarkisov, 1976). Bakıda təyyarəçilik kursunda təhsil almış Şərqin ilk təyyarəçi qadını Leyla Ələsgər qızı Məmmədbəyova Moskva uğrunda döyüşlərdə iştirak etdi. Müharibədən sonra həyatını təyyarəçilik peşəsinə həsr edən Leyla altı uşağını böyüdüb başa çatdırdı, planer-paraşütçü klubunda desantçılar hazırladı, Orduya, Aviasiyaya, Donanmaya Gönüllü Yardım Cəmiyyəti Bakı komitəsində sədr müavini vəzifəsində çalışdı. L. Məmədbəyovanın ön və arxa cəbhədəki həyata Mikayıl Müşfiqin Əfşan (1933), S. Vurğunun Leyla (1935) əsərlərinin ilham qaynağı olmuşdu. Rejissor Mikayıl Mikayılov "İsmət", Nazim Rza İsrafiloğlunun "Leyla" filmlərində cəsur təyyarəçinin həyat və fəaliyyəti işıqlandırılmışdır.

1915-ci ildə Bakının Əmircan kəndində anadan olan, 1934-cü ildə Bakı təyyarəçilik məktəbini bitirən Sona Piri qızı Nuriyeva Poltava şəhəri yaxınlığındakı Bataysk təyyarəçilik məktəbində təlim keçmiş, müharibə illərində arxa cəbhədə çalışmış, 20 yaşında "Lenin" ordeninə, 1945-ci ildə isə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Müharibədən sonra Almaniya, Çexoslovakiya, Yuqoslaviya, Macarıstan, Bolqarıstan, Polşa, Rumıniya hava xəttində qulluq edən S. Nuriyeva SSRİ Ali Sovetinə (1-ci və 2-ci çağırış) deputat seçilmiş (Şərq qadını, 1938, №5), 1969-cu ildə təqaüdə çıxmışdır (Məmmədov, 1988). İlk azərbaycanlı təyyarəçi qız Züleyxa Seyidməmmədova 40-dan çox hava döyüşü keçirdi. Onun döyüş xidmətləri ikinci dərəcəli "Vətən müharibəsi" ordeni və medallarla qeyd edildi. Seyidməmmədova Züleyxa Mir-Həbib qızı 1941-ci ildə N. C. Jukovski adına Hərbi Hava Akademiyasını bitirmiş, 1941-1945-ci illərdə qırıcı təyyarəçi və qadınlardan ibarət qırıcı

aviasiya polkunun komandirinin müavini olmuş, 500-dən atıq hava uçuşu, 40-dan artıq hava döyüşü keçirmişdir.

1945-ci ildə Azərbaycana qəhrəman aviasiya kapitanı kimi dönən təyyarəçi Z. Seyidməmmədova Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının Mərkəzi Komitəsinin katibi, 1946-1952-ci illərdə Azərbaycan KP MK-nın məsul işçisi, 1952-1975-ci illərdə Azərbaycan SSR İctimai Təminat naziri, sonra Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin sədrinin müavini vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali Sovetinin 2, 6, 8-ci çağırış deputatı olan Z. Seyidməmmədova, "Lenin", 2-ci dərəcəli "Vətən müharibəsi", 2 "Qırmızı Əmək bayrağı", 2 "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur (Əmrahov, 2021). Z. Seyidməmmədova "Təyyarəçinin qeydləri" (Bakı, 1969 (rus dilində) kitabının müəllifidir (Aliyev, 1979). Onun haqqında Nazim Rza İsrafiloğlu "Züleyxa" və "Göylər Sonsuz Bir Dənizdir" filmlərini çəkilmişdir.

Moskva müdafiəçiləri sırasında 1923-cü il avqustun 20-də Şamaxıda dünyaya göz açan 16 yaşlı Ziba Paşa qızı Qəniyeva da vardı. A.V. Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunun birinci kurs tələbəsi, 17 yaşlı gözəl və istedadlı azərbaycanlı qızı, Volxov cəbhəsi snayperinin güllələrini düşmənə dəqiq zərbələrlə endirən və tarixə ilk azərbaycanlı qadın snayper kimi düşmüş Ziba Qəniyeva müharibənin ilk günlərində cəbhəyə göndərməsini xahiş edir və qısamüddətli atıcılıq kurslarına göndərilir. Burada o, pulemyot, snayper tüfəngini atmağı öyrənir və kəşfiyyat sənəti ilə də yaxından tanış olur. Döyüş hesabında 129 öldürülmüş düşmən əsgəri olan Z. Qəniyeva müharibə illərində radist, snayper və kəşfiyyatçı olmuş, "Qırmızı bayraq", "Qızıl Ulduz", I dərəcəli "Vətən müharibəsi" ordenləri, "Moskvanın müdafiəsinə görə" medalı ilə təltif olunmuş, 1941-ci il noyabrın 7-də 3-cü Moskva Kommunist diviziyasının






**L. Məmmədbəyova** **S. Nuriyeva** **Z. Seyidməmmədova** **Z. Qəniyeva**

tərkibində Moskvada Qızıl Meydanda paradda iştirak etmişdir. Qələbədən sonra Z. Qəniyeva SSRİ-in Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri, məşhur diplomat Tofik Qədirovla ailə

həyatı qurmuşdur. Z. Qəniyeva Şərqşünaslıq doktoru, professor elmi adı almışdır. Məşhur Azərbaycan rəssamı Tahir Salahov xatirələrində yazır ki, 1940-cı ildə QİTİS-in aktyorluq fakültəsinə daxil olan Zibanın atası azərbaycanlı, anası özbək idi. Anası repressiya olunmuşdu. 1941-ci ildə Moskvada keçirilən 7 noyabr paradından birbaşa cəbhəyə yollanan Ziba1942-ci ildə ağır yaralanmış, dostları onu döyüş meydanından çıxararaq təyyarə ilə Moskvaya göndərmişlər. Hospitalda xəstələrə qulluq edən SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin həyat yoldaşı Mariya Fyodorovna Şvernik qanın zəhərlənməsindən ölümlə mübarizə aparan Zibanını 11 ay müalicə edir. Ziba ayağa qalxdıqdan sonra Mariya Fyodorovna gözləri yaşla dolu halda deyir: “Ziba bütün normal qadınlar uşağını 9 ayda dünyaya gətirirlər, ancaq mən səni 11 ayda dünyaya gətirdim”. Beləliklə, Ziba Nikolay Mixayloviç və Mariya Fydorovnanın qızı olur (Əmrahov, 2015). Z. Qəniyeva çox gözəl olduğundan “Tahir və Zöhrə” filmində İran şahbanusu rolunda çəkilmişdir. 1923-cü ildə Nuxada (indiki Şəki) dünyaya göz açan, 1940-cı ildə Bakı Əczaçılıq Texnikumunu bitirən Məmmədova - Kosmedemyanskaya Dürrə Abbas qızı müharibə başlayana qədər Nuxada 85 saylı aptekdə işləmiş, könüllü cəbhəyə getmişdi.

Novorossiysk şəhəri 43 nömrəli hərbi-dəniz donanmasının sərəncamına göndərilən Dürrə Məmmədova sonralar Novorossiysk Hərbi-Dəniz donanmasının sanitar anbarına köçürülür, tibb işçisi kimi 18-ci ordunun Qara dəniz hərbi hissələrinin dərmanlarla, sarğı ləvazimatları və tibbi avadanlıqlarla təchizi məsələləri ilə məşğul olur, yaralılara yardım göstərir. Onun döyüş şücaətləri “Qırmızı Ulduz” ordeni, 13 medal və fəxri fərmanlarla qiymətləndirilir (Əmrahov, 2021). 1948-ci ildə ordudan tərxis olunan D. Məmmədova tibb xidməti leytenantı rütbəsi alır, 1949-1951-ci illərdə Leninqradda (sankt-Peterburqda), 1951-1961-ci illərdə Uzaq Şərqdə hospitallarda işləyir, 1961-ci ildən Baş Apteklər İdarəsində əmək fəaliyyətini davam etdirir. 1965-ci ildə Müharibə Veteranları Sovet Komitəsinin Bakı şöbəsinin sədr müavini, 1978-ci ildən Respublika əhəmiyyətli fərdi pensiyaçı olan D.Məmmədova “Tibb xidməti əlaçısı”, “Azərbaycanın əməkdar səhiyyə işçisi” adlarına layiq görülmüş, onun döyüş yolu haqqında oçerk, şeir və povest yazılmışdır. Dürrə Abbas qızı Məmmədova 2010-cu ildə vəfat etmişdir.



**D. Məmmədova**

Azərbaycanın satirik şair Mirzə Ələkbər Sabirin nəvəsi Naibə Həşimova-Əfəndiyeva 1921-ci ildə Kürdəmirdə anadan olmuş, Bakı tibb texnikumunu bitirmişdir. Müharibə başlayandan 2 gün sonra-1941-ci il iyul aynın 24-də orduya səfərbər olunan N. Əfəndiyeva Qara dəniz Donanmasının Novorossiysk şəhərinin hərbi dəniz bazasının sanitar bölməsində, sonra donanmanın 43 №li hospitalında stomatoloq vəzifəsində, 1943-cü il iyunun 21-dən Qara dəniz Donanması Hərb Hava Qüvvələrinin 12-ci aviasiya bazasında tibb xidməti baş serjantı

rütbəsində çalışmışdı (Məmmədov, 1988). N. Həşimova 1943-cü ildə səhhətinə görə ordudan tərxis olunur, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil alır, V kursda oxuyarkən 26 Bakı komissarı Rayon (indiki Səbail rayonu) Xalq Məhkəməsinə hakim vəziyyəsinə seçilir. N. Həşimova 1979-cu ildə təqaüdə çıxmışdı. Naibə xanım "Almaniya üzərində qələbəyə görə", 1941-1945-ci illərin Böyük Vətən müharibəsinin 20-45-ci illiyi medalları, həmçinin Qırmızı bayraqlı Qara dəniz Donanması, 18-ci ordunun və əlahiddə dəniz sahili ordunun veteranı döş nişanları ilə təltif olunmuşdur.

1960-cı ildə general-leytenant Y. İ. İdilov "Biz Sevastopolu qoruyuruq" xatirə kitabında yazmışdı:

*"...Sanitar hissənin rəisi Marmanşteyn öz təsərrüfatının boşaldılmasına başlayır. Tibb bacıları və sanitarlar tibb alətləri və sterilizə edilmiş materiallarla dolu qutuları və yükləri daşıyırlar. Nəzərim ixtiyarsız olaraq iki qız fiquru üzrərində dayanır. Ciddi donanma forması bu qızlara necə də yaraşır! Gürcü Keto Xomereki və azərbaycanlı Əsmər Həsənova... Əsmər arıqdır, incə sifətli, qarayanızdır"* (Məmmədov, 1988, s. 27).

Y. İ. İdilovun haqqında bəhs etdiyi Həsənova Əsmər Əkbər qızı 1920-ci ildə Nuxada (Şəkidə) dünyaya göz açmış, 1937-ci ildə Nuxa Tibb Məktəbini bitirmiş, 1937-1939-cu illərdə Ağdaşda, 1939-1941-ci illərdə Huxada tibb bacısı işləmiş, 1941-ci il iyunun 22-də orduya səfərbər olunmuşdu. Cəbhə həyatına Kerçdə başlayan Ə. Həsənova həmin ilin avqustunda Sevastopola, 7-ci Hərbi-Dəniz briqadasına feldşer göndərilmiş,1942-ci ilin sentyabrında döyüşlərin birində kontuziya almışdır. Müalicədən sonra ordudan tərxis olunan Ə.Həsənova ömrünün sonunadək Nuxadakı mərkəzi xəstəxanada tibb bacısı kimi əmək fəaliyyətini davam etdirmişdir. Ə.Ə.Həsənova döyüş xidmətlərinə görə orden və medallarla təltif olunmuş, 1990-cı ildə dünyasını dəyişmişdir (Məmmədov, 1988).

Krım cəbhəsinin tibb işçilərindən biri də Manafova Ziynət Qaffar qızı idi. 483-cü batalyonda yaralılara xidmət edən Z. Manafova 1923-cü ildə Nuxada dünyaya gəlmişdir. 1938-ci ildə Nuxa Tibb Məktəbini bitirən Z. Manafova rayonun Aşağı Şabalud kəndində əmək fəaliyyətinə başlamış, müharibə başlayanda səfərbərliyə alınmışdır. 1941-1943-cü illərdə döyüş cəbhələrində olan Z.Manafova iki dəfə ağır yaralanır, Kerç, Novorossiysk, Kislovodsk və Qazax hospitallarında müalicə olunur. Tibb leytenantı Z. Manafova "Qafqazın müdafiəsinə görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur.


**N. Həşimova**


**Ə. Həsənova**


**Z. Manafova**

2011-ci ildə dünyasını dəyişmiş (Əmrahov, 2021).Z. Manafova ömrünün sonunadək (2011) sevdiyi tibb bacısı peşəsindən ayrılmamış, beş övlad anası Ziynət xanım Şəkinin ictimai həyatında fəal iştirak etmişdir.Əsmər Həsənovanın həmyerliləri Kubra və Lətafət Məmmədovalar da 44-cü diviziyanın tərkibində Sevastopol şəhəri uğrunda döyüşlərdə iştirak etmişlər (Əmrahov, 2021). Cəbhə dostları cəbhə yolu Tamandan, Krasnodardan, Şimali Qafqazdan keçən, Mozdok döyüşlərində, Kerç və Sevastopol uğrunda, Dnepropetrovsk, Poltava, Melitopol, Stalino, Şaxtı şəhərləri ətrafında döyüşlərdə, Ukrayna və Belorusiya torpaqlarının faşistlərdən təmizlənməsində iştirak edən, 1945-ci ildə Şərqi Prussiyadan keçərək Berlinə qədər gedib çıxan Aliyə Azərlini, 1942-ci ildə cəbhəyə gedən Qöncə Krasnodarda 56-cı ordunun 17-ci atıcı diviziyasında polkun baş həkimi təyin olunan, Zaparojye döyüşlərində yaxşı xidmətə və rəşadətə görə II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edilən, 1944-cü ilin aprel ayında tibb kapitanı kimi ordudan tərxis olun Q. Qaragözovanı unutmamışlar.

Azərbaycanlı qızlar İtaliyada partizan hərəkatında iştirak etdilər. Onlardan biri də Mədinə Əhmədova idi. Mədinə cəbhə həyatına 1941-ci ilin payızında Krımda 386-cı diviziyanın 474-cü tibbi sanitar batalyonunda başlamışdı. Əsir düşən M.Əhmədova Almaniyaya gətirilmiş, Ravensburqyuk qadın həbs düşərgəsinə salınmışdı. Bir neçə aydan sonra faşistlər əsirləri, o cümlədən Mədinəni İtaliyaya aparmışlar. Burada İtalyan partizanlarına qoşulan Mədinə müharibənin sonunadək düşmənlə mübarizə aparmışdı.

### 3. Azərbaycanın Müharibə Veteranları - Azərbaycanlı Cəbhəçi Qızlar

Şimali Qafqaz döyüşlərinin iştirakçısı, 339-cu zenit artilleriya polkunun II dərəcəli radisti Raufə Həsənovanı, 1942-ci ildə orduya çağırılan və cəbhə həyatının ilk səhifəsi Kareliyada İmandra gölünün sağ sahilində yazan Nazxanım Səfərovanı, II Ukrayna cəbhəsində zenit-artilleriya polkunda sıravi əsgər kimi döyüş yoluna başlayan, qulluq etdiyi alayda Odessa, Dnepropetrovsk, Xerson, İvanovo-Voznesensk, Mogilyov və digər şəhərlər uğrunda faşistlərlə döyüşlərdə mətanət göstərən Ətir Talıbovanı hörmətlə yad edirlər.

### 3.1. Milli Atıcı Diviziyaların Qəhrəman Qadınları

Müharibə illərində Azərbaycan SSR ərazisində 87 batalyon, 1123 özünümüdafiə dəstəsi, 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci, 416-cı atıcı diviziyalar formalaşdırılmışdı. Bu diviziyaların tərkibində döyüşlərdə iştirak edən azərbaycanlı qadınlar müharibə tarixinə şərəfli səhifələr yazmışlar.

Qafqaz uğrunda döyüşlərdə sınaqdan keçən 223-cü diviziyanın döyüşçüləri sırasında öz cəsurluğu ilə seçilən azərbaycanlı Qədriyyə Səlimova döyüş yoluna Şimali Qafqazdan başlamış, Ukrayna torpağında döyüşmüş, 3-cü Ukrayna cəbhəsi, 46-cı ordunun xüsusi şöbəsi də xidmət etmişdir. Leytenant rütbəsi alan Qədriyyə Macarıstana qədər döyüş yolu keçmiş, qələbəni Vyanada qarşılamışdır. Müharibədən sonra Q. Səlimova 1945-ci ildə ADU-nun tarix fakültəsinin fəlsəfə bölməsinə daxil olmuş, 1953-cü ildə fəlsəfə doktoru, 1971-ci ildə elmlər doktoru dissertasiyası müdafiə etmişdir.

Ağdaş şəhərində anadan olan Bikə Gözəlova döyüş yoluna 223-cü atıcı diviziyasında Mozdokda başlamış, Budapeştə qədər döyüş yolu keçmiş, qələbə sevincini Çexoslovakiya torpağında eşitmişdi. "Qafqazın müdafiəsinə görə". Budapeştin, Belqradın, Vyananın alınmasına görə, "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuş Bikə Gözəlova ordudan tərxis olunduqdan sonra Ağdaşda əmək fəaliyyətini davam etdirmişdi.

223-cü diviziyanın döyüşçüləri ilə birlikdə Mozdokda cəbhə həyatına başlayan, Ukraynanın Xarkov, Dneprodzerjinsk, Kotovsk, Odessa uğrunda gedən döyüşlərdə iştirak edən Anatollu İbrahim qızı Əbilova, II Ukrayna cəbhəsi qoşunları tərkibində Belorusiyadan, Rumıniya və Macarıstanda keçib Çexoslovakiyada 9 may qələbə gününün qarşılamış, Ordudan tərxis olunduqdan sonra respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmişdi.

Qəhrəman qızlarımızdan biri də, 223-cü diviziyanın tərkibində Dnepr çayını keçən, yaralıları döyüş meydanlarından çıxarılmasında mərdlik nümunəsi göstərən Furfanda Kazım qızı Cəmilova diviziya birlikdə Rumıniya və Borqarıs tanın faşistlərdən azad edilməsində, Belqrad döyüşlərində iştirak etmiş, „Qırmızı Ulduz" ordeni ilə təltif olunmuş, Qələbəyə üç gün qalmış yaralanaraq ordudan tərxis olunmuşdu (Məmmədov, 1988). 223-cü diviziyanın cəsur qızlarından biri, faşistlərlə döyüşdə yüzlərlə yaralını ölümün pəncəsindən almış, ən çətin anlarda faşistlərlə döyüşə girmiş Sona Ağayevanın sorağı Bolqarıstan, Macarıstan, Avstriya, Yuqoslaviya torpaqlarından gəlmişdi. Sona Ağayeva "Belqradın azad edilməsinə görə", Budapeştin və Vyananın alınmasına görə "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur.

Qırmızı bayraqlı və II dərəcəli Suvorov ordenli 416-cı diviziyanın qazandığı qələbələrdə kişilərlə yanaşı *Ədilə Abbasovanın, Səkinə Bayramovanın, Nəzakət Yəhyayevanın, Şükufə Əsgərovanın, Rəşidə Qasım-zadənin, Zəhra Səlimovanın, Mina Hacıyevanın, Cənnət Kazımovanın, Səkinə Şəfiyevanın, Pakizə Manafovanın, Rübabə Rzayevanın, Mina Teymurovanın* və onlarla başqalarının əməyi az olmamışdı. Azərbaycanlı qızlar-Rübabə, Səkinə, Nəzakət, Rəhimə, Tahirə "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif olunmuşdular (AMEA. Cəbhədən məktublar, 1988, qovluq 9). Müharibə dövründə alman-faşist işğalçılarına qarşı fədakarlıqla vuruşduqlarına görə diviziyanın 152 döyüşçü qadınından 45 nəfər, o cümlədən hərbi feldşer B. Mircavadova "Qızıl Ulduz" ordeni ilə, 42 nəfər "İgidliyə görə" və "Döyüş xidmətlərinə görə" medalları ilə təltif olundular. 17 qadın, o cümlədən T. Fəttahova, B. Mircavadova, R. Babayeva zabit rütbəsinə layiq görüldülər.

Reyxstaq divarlarına avtoqraf yazanlar sırasında Böyükxanım Mircavadova və Rəhimə Babayeva da vardı (Azərbaycan qadını, 1963, № 2). Tahirə Fəttahova qədim Gəncədə dünyaya göz açmışdı. Müharibə başlananda Bakı əczaçılıq məktəbini bitirən gənc Tahirə əvvəlcə 752-ci hərbi səhra xəstəxanasında çalışmış, 1942-ci ildə 416-cı Azərbaycan milli atıcı diviziyası təşkil olunanda onun aptek rəisi təyin olunmuş, ilk döyüşü Terek sahillərində qarşılamışdı. Mozdokdan Taqanroka kimi döyüş yolu keçən T. Fəttahova bütün çətinliklərə baxmayaraq əsgərləri dava-dərmanla təchiz etmiş, Taqanrok uğrunda döyüşlərdə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunmuş, Visla çayı keçilərkən, Almaniya torpağına qədəm qoyularkən, Qnezdən, Kustin, Berlin şəhərləri alınarkən Ali Baş Komandanlığın təşəkkürünü almışdı. T. Fəttahova "Qırmızı Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Berlinin alınmasına görə", "1941-1945-ci illərin böyük Vətən müharibəsi illərində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdi. Rəşidə Qasımzadə 1941-ci ildə ordu sıralarına çağırmışdı. 1942-ci ilin əvvəlində 416-cı diviziyaya göndərilən R. Qasımzadənin diviziya ilə döyüş yolunda "Qırmızı Ulduz" (1944), İkinci dərəcəli "Vətən müharibəsi" (1945) ordenləri, "Qafqazın müdafiəsinə görə", "Varşavanın azad edilməsinə görə" və digər medallarla təltif edilmişdi. Müharibədən sonra Bakıda tibb bacısı işləyən R.Qasımzadə Beynəlxalq Qırmızı Xaç Komitəsinin qərarına əsasən "Florens Nojtinqeyl" medalı ilə təltif edilmişdi.

Cəbhə dostları Böyükxanım Mircavadovadan söz düşəndə onu cəsur əsgər kimi dəyərləndirirlər. O, Azərbaycan qadınları arasında ilk dəfə "Qırmızı Ulduz"ordeni ilə təltif edilmiş şəfqət bacısı idi. 1941-ci ilin iyun ayının 28-də cəbhəyə çağırılan B. Mircavadova 44-cü orduda xidmətə başladı, 1942-ci ilini yazında 416-cı diviziyanın 68-ci atıcı polkuna göndərildi. Mozdok şəhəri yaxınlığında döyüşdə 87 yaralını ölümdən qurtardığı üçün "Qırmızı


A. Əbilova


T. Fəttahova


R. Qasımzadə


B. Mircavadova

Ulduz" ordeni ilə təltif olunmuşdu. B. Mircavadova ordudan "Qafqazın müdafiəsinə görə", Varşavanın və Berlinin alınmasına, Almaniya üzərində qələbəyə görə medalları ilə təltif qayıtmışdı.

1942-ci ilin 20 aprelindən 1945-ci ilin mayın 2-dək Qafqaz dağlarından Berlinədək döyüş yolu keçən 416-cı diviziyanın döyüşçülərindən 8 nəfər Sovet İttifaqı Qəhrəmanı, 11 nəfər "Lenin" ordeni, 358 nəfər əsgər və zabit "Qırmızı Əmək Bayrağı" ordeni, 3 nəfər 2-ci dərəcəli "Kutuzov" ordeni, 47 nəfər "Aleksandr Nevski" ordeni, 540 nəfər 1-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 1.756 nəfər 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 5.205 nəfər "Qızıl Ulduz" nişanı, 5.666 nəfər isə "İgidlik" və "Hərbi xidmətlərinə görə" medalı ilə təltif olundu. Ümumiyyətlə, diviziyanın təşkil olunduğu gündən Qələbə gününədək 14.369 nəfər müxtəlif orden və medallarla təltif olunmuşdur (Azərbaycan Sovet Ensiklopediyası, 1963).

### 3.2. Partizan Dəstələrində. SSRİ-də Alman Faşizminə Qarşı Partizan Hərəkatının Təşkili

SSRİ XKS və ÜİK(b)MK-nın 1941-ci il 29 iyun tarixli direktivlərində və ÜİK(b)MK-nın 1941-ci il 19 iyul tarixli "Alman ordularının arxasında mübarizənin təşkili haqqında" qərarında, bir sıra digər qərar və direktivlərində müvəqqəti işğal edilmiş rayonlarda düşmən və onun əlaltıları üçün dözülməz şərait yaratmaq, süvari və piyada partizan dəstələri təşkil etmək, işğalçılara qarşı bütün mübarizə formalarına rəhbərlik etmək üçün gizli partiya təşkilatları şəbəkəsi yaratmaq və genişləndirmək vəzifələri müəyyənləşdirildi. Müharibənin ilk aylarında

sovet ordusunun bir sıra uğursuzluğu nəticəsində düşmən tərəfindən əsir alınmış döyüşçülər dözülməz əzab və işgəncələr, təbliğat və təxribata əsir düşərgələrindən qaçaraq partizan dəstələrinə qoşulmuşdular. 1941-1945-ci illər müharibəsində kişilərlə çiyin-çiyinə azərbaycanlı qadınlar da faşist işğalçılarına qarşı partizan hərəkatında iştirak etmişlər. Onlardan biri də Alfa Əli qızı Şirazi idi.

Alfa Şirazi 1943-cü il mayın 30-da xüsusi hazırlıq kursunu bitirdikdən sonra düşmən arxasında təxribat aparmaq üçün 13 nəfər partizanla Ukraynanın Pavlovka kəndinə enmişdi. Lakin dəsətənin düşdüyü yeri aşkar edən düşmən 13 nəfər xalq intiqamçısını mühasirəyə alır (Alıcanov, 1975, s.92-93). Partizanlar səkkiz saat davam edən qeyri-bərabər döyüşdə düşmənin xeyli sayda əsgər və zabitini öldürür və yaralayırlar. Azərbaycanlı cəsur qız Alfa Şirazi qəhrəmanlıqla həlak olur. A. Şirazi ölümündən sonra ikinci dərəcəli “Vətən müharibəsi ordeni ilə təltif olunmuşdur (Azərbaycan gəncləri, 1969, 11 oktyabr).

Aliyə Fətullah bəy qızı Rüstəmbəyova 1907-ci ildə Şuşa şəhərində doğulmuşdur. Atası Fətulla bəy Rüstəmbəyov Salyanın məşhur bəy nəsli olan Rüstəmbəyovlar nəslindən, anası isə Şuşanın məşhur Mehmandarovlar nəslindəndir. Atası Fətulla Rüstəmbəyov Azərbaycan neft sənayesinin təşkilatçılarından biri, bir vaxtlar azərbaycanlı milyonçu Musa Nağıyevin firmasının müdiri, Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra (1920) Azneftin (Bakıda Azərbaycan Neft Sənayesi Dövlət Birliyi) baş texniki direktor, rəis müavini və idarə heyətinin üzvü vəzifələrini tutub. Onun anası azərbaycanlı həkim, əslən şuşalı olan Kərim bəy Mehmandarovun qızı idi. Hələ kiçik yaşında ikən ailələri Bakıya köçüb. Atası Fətulla Rüstəmbəyov neft sənayesində çalışıb, mühəndis-texnoloq, Azərbaycanda neft sənayesinin yenidən qurulmasının təşkilatçılarından biri olub. Aliyə orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb İnstitutuna daxil olmuş, az sonra təhsilini 1-ci Leninqrad Tibb İnstitutunda davam etdirmişdir. İnstitutu 1935-ci ildə fərqlənmə diplomu ilə bitirən Aliyə Rüstəmbəyovanı rektorluq Moskvaya göndərməyi nəzərdə tutsa da, o, Özbəkistana tikintidə həkim kimi çalışmağa gedir və 3 il - Çirçik (Özbəkistan) şəhərində tikinti idarəetmə xəstəxanasında həkim işləyib 1938-ci ildə təcrübəli həkim-terapevt kimi Moskvaya göndərilir, Həkimləri Təkmilləşdirmə İnstitutunda çalışır, sovet terapevti və tibb alimi, SSRİ Tibb Elmləri Akademiyasının akademiki M. S. Vovsinin rəhbərliyi altında elmi tədqiqatlar aparır.

A. Rüstəmbəyovanın müharibə həyatı 1939-cu ildə başlayıb. Sovet- Finlandiya müharibəsində həkim kimi cəbhəyə, Kareliya bərzəxində gedən döyüşlərdə iştirak edib, Sovet-fin müharibəsi başa çatdıqdan sonra Moskvaya qayıtmışdır. 1941-ci ilin 22 iyununda isə faşist Almaniyası ilə Sovet İttifaqı arasında dəhşətli müharibə başlayanda Aliyə yenidən cəbhəyə gedir, Volokolamsk şəhərində yerləşən Qırmızı Ordu hissələrindən birinin tibb-sanitar

batalyonuna hərbi həkim təyin olunur. O, əvvəlcə Moskva ətrafında, sonra Smolensk-Bryansk cəbhə xəttində tibb-sanitar batalyonunda çalışır, yüzlərlə yaralı əsgəri ölümdən xilas edir.

Aliyənin əsirlik həyatı, sonrakı taleyi çox acınacaqlı olub. 1941-ci ilin dekabrında ağır döyüşlərin birində Aliyə yaralanır və əsir düşür. Almanlar Aliyənin həkim olduğunu bilir və ondan bir həkim kimi istifadə etmək istəyirlər. O isə əsirlikdən qaçmaq və partizanlara qoşulmaq istəyirdi. Bunun üçün vaxt və imkan qazanmaq üçün almanların təklifi ilə razılaşır. 1942-ci ilin fevralında bir qrup əsir döyüşçü ilə əsirlikdən qaçır, Smolensk meşələrində "Deduşka" adlı partizan dəstəsində həkim kimi çalışır. 1942-ci ilin yayında Smolensk partizanlarının vəziyyəti ağırlaşır. Almanlar öz hərbi hissələrini birləşdirərək partizan dəstələri üzərinə yeni qüvvələr göndərir. "Deduşka"nın digər partizan dəstələri ilə əlaqələri kəsilir. Düşmənə ciddi müqavimət göstərən partizanlar çox ciddi itki verirlər. 1942-ci il iyunun axırlarında həmin qanlı döyüşlərin birində Aliyə Rüstəmbəyova qəhrəmancasına həlak olur.

A. Rüstəmbəyovanın partizanlıq fəaliyyəti barədə Smolensk partiya arxivində və AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunda xeyli material var. Həmin materiallar arasında Pavlov adına Leninqrad Tibb İnstitutunun Pronedevtika-Terapevtika Klinikasının direktoru, SSRİ Tibb Elmlər Akademiyasının həqiqi üzvü, həmin dövrdə Leninqrad şəhərinin baş terapevti işləmiş M.Tuşinskinin N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun dosenti, tibb elmləri namizədi Məhbubə Mahmudbəyovaya (Aliyənin xalası) göndərdiyi beş məktubu vardır.

Şairə Mirvarid Dilbazi "Partizan Aliyə" (1972) poemasını yazıb. Heykəltəraş Aslan Rüstəmov onun büst-portretini (1962) hazırlayıb.


**A. Şirazi**


**A. Rüstəmbəyova**


**S. İbrahimova**

Azərbaycan xalqının igid qızı Sara İbrahimova Ukraynanın cənub-qərbində V. Andreyevin komandası altında fəaliyyət göstərən birinci Moldaviya partizan birləşməsində hərbi həkim kimi həm döyüşmüş, həm də onlarla xalq intiqamçısını müalicə edib sağaltmışdı. S.T.İbrahimova partizan hərəkatındakı xidmətlərinə görə "Qırmızı Ulduz" ordeni və bir neçə medalla təltif

olunmuşdu (Alıcanov, 1975). Krım yarımadasında Aluşta-Yalta istiqamətində keçirilən döyüş əməliyyatlarında tibb batalyonunda xidmət edən Firuzə, Böyükxanım və Xədicə əsir düşərək Almaniyaya aparılarkən qaçıb partizanlara qoşulmuşlar. Partizan qızlar Ukraynanın İrdı, Qorodişev, Cila, Çiqirin, Znamenko, Keremençuq, Şpola, Kamenko, Nov-Mirqorod kimi şəhər və qəsəbələr ətrafında qəfləti hücumlarla faşistlərə ciddi tələfat vermişdilər. 1944-cü ilin yavarında doğma vətənə qayıdan qızar yeni həyata başladılar. Kiçik leytenant Xədicə Lətifova Şəkiyə qayıtdı. Firuzə Fətəliyeva Bakıda urologiya klinikasında, Böyükxanım Bağırova Xəzər dənizçləri xətəxanasında tibb bacısı işləməyə başladı. Sanitar təlimatçı Mədinə Əhmədova İtaliyada, Böyükxanım Bağırova, Xədicə Lətifova, Firuzə Fətəliyeva, Əsmər Həsənova isə Krımda partizan dəstəsində döyüşürdülər.

### 4. Uzaq Şərq Döyüşlərində

Məlumdur ki, Sovet hökuməti Potsdam konfransının qərarlarına uyğun olaraq Yaponiyaya qarşı müharbəyə başladı. Sovetlərin müharibəyə qoşulması, müttəfiqlərin regionda hərəkətləri Yaponiyanı çıxılmaz vəziyyətə saldı və danışıqsız təslim aktına imza atmasına səbəb oldu. Kvantun qruplaşması darmadağın edildi. Bu İkinci Dünya müharibəsində Yaponiyanın ən böyük məğlubiyyəti idi. Hərbi əməliyyatlar nəticəsində və düşmənin təslim olunmasında sovet döyüşçüləri 600 min əsgər və zabiti əsir aldı, 300 min avtomat, 700 tank,1,8 milyondan çox silah, 860 təyyarə ələ keçirildi. 40 milyon insan yaşayan 1,3 milyon kv. km ərazi azad edildi (Vtoraya mirovaya voyna: İtoqi i uroki, 1985). 1945-ci il sentyabrın 2-də, saat 9-04-də Tokio körfəzində Amerikanın «Missuri» linkorunun göyərtəsində Yaponiya danışıqsız təslim aktını imzaladı. Yaponiya imperatoru, yapon hökuməti adından xarici işlər naziri *M.Siqemitsu* və yapon ordusunun baş ştabının rəisi Ö. Y. Medzu aktı imzaladılar.

Yaponiya üzərində qələbə asan başa gəlmədi. SSRİ silahlı qüvvələri Yaponiya ilə müharibədə ölənlər, yaralananlar və itgin düşənlərlə birlikdə 36.456 adam itirdi, onlardan 12.031 nəfər həlak oldu (Qrif sekretnosti snyat:Poteri Voorujennıx Sil SSSR v voynax, boevıx deystviyax i voennıx konfliktax: Stat, 1993). Müharibədən sonra SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə 2 sentyabr Yaponoya üzərində qələbə günü kimi rəsmiləşdirildi. Bakılı Təzəxanım Əlizadə, şəkili qızlar Cəvahir Abbasova, Mülayim Cəfərova, bakılı Fəridə Vəzirova və başqaları kişilərlə çiyin-çiyinə Uzaq Şərq döyüşlərində iştirak etdilər. Cəsur qızların həyatından sətirlər: 1942-ci ildə orduya çağırılan, Stalinqraddan Uzaq Şərqə qədər döyüş yolu keçən, I Uzaq Şərq cəbhəsinin topçu hissəsində rabitəçi-telefonçu vəzifəsində xidmətə edən Təzəxanım Əlizadənin xidmət etdiyi batareya Ussuri çayının qolu olan İman çayı sahilində döyüşləri davam etdirdi.


C. Abbasova

Uzaq Şərq döyüşlərinin iştirakçısı Abbasova Cəvahir Rzaqulu qızı 1919-cu ildə Nuxada dünyaya gəlmişdir. 1937-ci ildə Nuxa Tibb Məktəbini, 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş Cəvahir Abbasova 1942-1946-cı illərdə Şimali Qafqazda, Şərqi Sibirdə tibb sanitar batalyonlarında, səhra hospitallarında cərrah kimi fəaliyyət göstərmişdi. 1946-cı ilin iyul ayında hərbi xidmətdən kapitan rütbəsində tərxis olunan C.Abbasova Nuxa Səhiyyə şöbəsində müxtəlif vəzifələrdə işləmiş, cərrahlıqla yanaşı nevropatoloq ixtisasına yiyələnmiş, Tibb məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuş, 1973-cü ildə "Şəki" ipək kombinatı fəhlələrinin mərkəzi və əsəb xəstəliklərinin klinikasına dair" mövzusunda dissertasiya müdafiə etmişdir. Tibb üzrə fəlsəfə doktoru, "Səhiyyə əlaçısı", "Yüksək dərəcəli həkim" (1978) Cəvahir Abbasova bir çox orden və medallarla təltif olunmuşdur.

Cəvahir Rzaqulu qızı Abbasova 2003-cü ildə dünyasını dəyişmişdir (Məmmədov, 1988). Fəridə Vəzirova hərbi xidmətə Bakı Hava Hücumundan Müdafiə Qoşunları 3-cü projektor alayının 2-ci batalyonunda sıravi əsgər kimi başlamışdı. Bakı səmasını qoruyan döyüşçülərin sağlamlığının keşiyində dayanan Fəridə Vəzirova Uzaq Şərqə yapon işğalçılarına qarşı döyüşlərin də fəal iştirakçısı olmuş, "Yaponiya üzərində qələbəyə görə" medalı ilə təltif olunmuşdur.

F. Vəzirova ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirdi, 1856-cı ildə "Cəfər Cabbarlı yaradıcılığında sosialist realizmi" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi (indiki fəlsəfə doktoru) elmi dərəcəsi, az sonra professor elmi adı aldı. 1963-cü ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilən F.Vəziravanın əsərləri rus, özbək və erməni dillərində nəşr olunmuşdur.

**5. Arxa Cəbhənin Qadınları**

1941-1945-ci illər müharibəsi Azərbaycan qadınının həyatına fəlakətlər və məhrumiyyətlər gətirdi. Müharibənin ilk günlərindən qadınlar ordu sıralarına səfərbər olundular. Döyüşçü, sanitar, arxada cəbhəyə gedən atalarını, qardaşlarını, ərlərini əvəz edən fəhlə oldular, ancaq bir an da olsa analıq hissini itirmədilər, bir üzü gəlin, bir üzü qız balalarını böyütdülər. Azərbaycan qadınları hər cür əziyyətə qatlaşaraq cəbhə üçün lazım olan hər şeyi istehsal etdi, öz əmək haqlarından kəsib cəbhəyə kömək göstərdilər. Qadınlar təsərrüfat, istehsal, ictimai işlərlə yanaşı, cəbhədə vuruşan əsgərlər üçün paltar, bayram sovqatı göndərdilər, onlara hərarətli məktublar yazaraq qələbəyə ruhlandırdılar (Məmmədov, 1988). Azərbaycanın 75 qadınının xalqa müraciət edərək ölkənin müdafiə fondunun yaradılmasında

fəal iştirak etmək çağırışına qoşulan Azərbaycan xalqı təkcə 1941-1943-cü illərdə 1.601.540 ədəd müxtəlif paltar-isti yun corablar, əlcəklər, alt və üst paltarları, sırıqlı-toplayıb bağlamaların üzərinə "Sərrast atıcıya", "Cəsur kəşfiyyatçıya" sözləri yazaraq 125 vaqonda cəbhəyə yola saldılar (Məmmədov, 1988). Azərbaycan sənayesinin işçilərinin yarıdan çoxunu qadınlar təşkil edirdi. Təkcə neft sənayesində 1944-cü ildə 32.330 qadın çalışırdı. Sənayenin maşınqayırma bir sahəsində də qadınlar əmək növbəsində dayanmışdılar. Əgər 1941-ci ilin sonunda Azərbaycanda maşınqayırmada işləyən işçilərin ümumi sayında qadınların xüsusi çəkisi 34 faiz idisə, 1945-ci ildə bu rəqəm 42,5 faizə yüksəlmişdi. Bakıda 17 maşınqayırma zavodunda 5813 qadın, onlardan 4912 qadın bilavasitə emalatxanalarda çalışırdı. 1945-ci ilə qədər Azərbaycanda maşınqayırma zavodlarında çalışan işçilərin 72,5 faizini qadınlar təşkil edirdi

Dəmir yolunda kişilərin cəbhəyə getməsi nəticəsində yaranan ixtisaslı işçi çatışmazlığını daşımağa gedən qadınlar və gənclər doldururdu. 1943-cü ilə qədər 1,4 min qadın dəmiryol işçisi hazırlandı. Müharibədən əvvəl yalnız bir neçə qadın işçi var idisə, 1941-ci ilə qədər onların sayı 752-yə çatmışdı (Belyayeva, 1957). Bakı sərnişin stansiyasında maşinistlərdən S. Şiryayeva, V. Lyubçenko, K. Danilinanın qadın lokomotiv briqadası xüsusilə fərqlənmişlər (Azerbaydzhanskaya SSR v gody Velikoy Otechestvennoy voyny, 1976). İlk azərbaycanlı qadın kapitan Şövkət Səlimova Xəzər neft donanmasının tankerində işləmiş və həmişə yanacağın çatdırılması işinin öhdəsindən gəlmişdi. Uğurlu fəaliyyətinə görə Qırmızı Bayraq ordeni və "Qafqazın Müdafiəyə görə" medalı ilə təltif edilmişdir. Kimya sənayesi öz işini müharibə tələblərinə uyğun qurmuşdu. Kimya zavodlarında yanğın əleyhinə geyim və inventarlar buraxılırdı.

Müharibə illərində Azərbaycan SSR-in yüngül, yeyinti və yerli sənayesində çalışan işçilərin ümumi sayının 80 faizindən çoxunu qadınlar təşkil edirdi (Belyayeva, 1957). Respublikanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün 200-ə yaxın məhsul istehsal edirdi. Toxuculuq kombinatının işçisi T.Məlikova beş gündə 70 kiloqram ipliyə, Volodarski adına tikiş fabrikinin işçisi N. Rəcəbova 700 metr palto parçasına və 2500 metr digər parçalara qənaət etmişdilər (Kadırova, 1975). Əli Bayramova adına fabrikin tikişçisi S. Babayeva, Gəncə (Kirovabad) toxuculuq kombinatının toxucuları N. Rəhimov, E. Şamxalova, F. Mustafayeva, X. Əliyeva, X. Mustafayeva və bir çox başqaları istehsal normasını iki dəfə yerinə yetirmişdilər. Xalq istehlakı malları istehsalı hərbi təsərrüfatın təchizatına yönəldilmişdi. Ordunun təchizi üçün ərzaq, geyim, ayaqqabı və digər növ məhsullar istehsalı artırılmışdı. Müharibənin birinci dövründə Azəbaycanın yüngül sənaye müəssisələri ordu üçün vacib olan 30 növ məhsul istehsalını mənimsənilmişdi. Tikiş sənayesi şinel, yay geyimləri, qulaqlı papaqlar, pilotkalar,

yataq ağları və digər məhsullar hazırlamağa başlamışdı. Müharibəyə qədər Lenin adına toxuculuq kombinatı əhalinin ehtiyacı üçün mallar istehsal edirdi, müharibə başlayandan sonra orduya lazı olan geyimlər, tibbi tənziflər və b. mallar buraxmağa başladı. Yerli sənaye və sənaye kooperativlərinin işçiləri hərbi-təsərrüfat məhsulları buraxılışına qoşulmuşdular. Qısa müddətdə yeni məhsullar cəbhə ehtiyaclarını ödəməyə başlamışdı. Yerli sənaye müəssisələri 200 növə yaxın müxtəlif məhsulların istehsalını mənimsənilmişdi. Hərbi idarələrin tapşırıqlarına əsasən yerli sənaye və sənaye koperativ müəssisələri qısa müddətdə döyüşçülər üçün valenka, yun corab məsullarının buraxılışı təşkil etmişdilər. Yeyinti sənayesi əvvələr xaricdən gətirilən yeni növ preparatların buraxılmasının mənimsəmişdi. Yerli xammaldan istifadə vasitəsilə tibbi preparatlar buraxılışı təşkil edilmişdi. Bakının ət kombinatı steril ampulalarla jelatin, aktivləşdirilmiş kömür, tonalbin və b. preparatlar istehsal edirdi.

Müharibə illərində qadınlar sənaye sahələrində olduğu kimi kənd təsərrüfatında da fədakarlıq nümunələri göstərdilər. Azərbaycanda müharibənin birinci ilində istehsalatda və kənd təsərrüfatında 25 minə yaxın qadın cəbhəyə gedən kişiləri əvəz etmişdi (Novruzov, 1963). Kənd təsərrüfatında işləyən əmək qabiliyyətli adamların 78, pambıq tarlalarında işləyənlərin isə 80 faizi qadınlar idi (Məmmədov, 1988). Minlərlə qadın traktorçu, pambıqçı, tütünçü, üzümçü peşələrinə yiyələndilər.1942-ci ilin aprelində Qasım-İsmayılov MTS-in kommunistləri və komsomolçuları respublikada ilk qadın briqadasını təşkil etdilər ki, onların tərkibinə A. Hüseynova, Q. Qasımova, S. Xəlilova və başqaları daxil idi. Artıq 1942-ci ilin iyununda respublikanın MTS-lərində 1100-ə yaxın traktorçu işləyirdi. 1944-cü ilə qədər Azərbaycanda qadınlar traktorçuların 61,7 faizini, kombaynçı köməkçilərinin 52,2 faizini, təmirçilərin 35,1 faizini və 25,4 faizini qadınlar təşkil edirdi. Onlar pambığın becərilməsi və yığılması üzrə bütün işlərin təxminən 80 faizini yerinə yetirmişdilər (Murmantseva, 1979). Qadın mexanizatorlar rekord pambıq yığımı və yüksək iş günü məhsuldarlığı ilə bütün respublikanı şöhrətləndirdilər. V.Bespalovanın Jdanov (indiki Beyləqan rayonu) rayonunun Lenin adına sovxozun gənc qadın traktor briqadası planı 323 faiz yerinə yetirərək 1942 və 1944-cü illərdə SSRİ Sovxozlar Xalq Komissarlığının qadın traktorçu briqadalarının yarışında 1-ci və 2-ci yerləri qazanmışdı. (Bakinskiy raboçiy, 1944, 26 noyabr). Respublikanın Ağdam, Bərdə, Qasum-İsmayılı (indiki Goranboy rayonu), Karyagin (indiki Füzuli), Mardakert (indiki Ağdərə), Sabirabad və digər rayonlarının pambıqçıları rəşadətli əmək nümunələri göstərmişlər. 1944-cü ildə respublikanın kolxozçularına hesablanmış iş günlərinin ümumi məbləğinin 65 faizi qadınların payına düşürdü (Novruzov, 1963). Azərbaycan heyvandarları ictimai heyvandarlığın inkişafında əldə etdiyi göstəricilərə görə ardıcıl dörd dəfə Dövlət Müdafiə Komitəsinin Keçici Qırmızı Bayrağı ilə

təltif edilmişdi (Bakinskiy raboçiy, 1945, 20 mart). Kolxoz və sovxozlarda gənclər briqadalarının sayı artmağa başlamışdı. 1942-ci ildə kənd təsərrüfatında cəmi 1.230 gənclər briqadası olduğu halda, 1942-ci ildə respublikamızda 1.230 manqa, 1943-cü ildə 2.825 manqa, 1945-ci ildə isə 3.165 manqa işləyirdi (Bakinskiy raboçiy, 1943, 10 oktyabr).

### 6. Müdafiə Fonduna Yardım

Müharibə illərində Azərbaycanda müxtəlif müdafiə fondlarının yaradılması, cəbhəçilərə hədiyyə dəstlərinin göndərilməsi, dövlət hərbi kreditlərinə yazılmaq kimi vətənpərvərlik işlərinin formaları geniş vüsət aldı. Azərbaycan xalqı öz şəxsi vəsaitini də əsirgəmədi. Əmək hünəri göstərən əhalidən respublikanın müdafiə fonduna nağd şəkildə ödənilən 31.756 min rublun 16.456 min rublu, 30.765 min rubl dəyərində dövlət istiqrazı vərəqələrinin 13.268 min rublu Bakı zəhmətkeşləri tərəfindən ödənilmişdi. Respublikanın zəhmətkeşləri müdafiə fonduna 295 milyon rubldan çox vəsait qoymuş, 14,3 kq-dan çox qızıl, 952,5 kq gümüş, 15 milyon rubl dəyərində dövlət borc istiqrazları və s. təhvil vermişlər (İmanquliyev, 1965, Azərbaycan qadını, 1965, № 5). Respublika əhalisi Sovet Ordusunun əsgərlərinə müxtəlif geyimlər, isti alt paltarları, fərdi kollektiv bağlamalar toplayıb göndərirdi. Müharibə illərində orduya 373.667 hədiyyə, demək olar ki, 35 milyon rubl dəyərində isti paltar göndərildi (AMEA TİEA, Cəbhədən məktublar, qovluq 9). Müharibə illərində qara və əlvan metal toplantısı toplamaq üçün 218 ümumrespublika iməciliyi keçirilmiş, bu iməciliklərdə 319.191 adam iştirak etmiş, 255.584,8 ton əlvan və qara metal qırıntısı toplanılıb metallurgiya zavodlarına verilmişdi. Bu qırıntıların çəkisi orta hesabla 2.380 tanka və yaxud 3.400 ədəd orta kilibirli topa sərf olunan metala bərabər idi.

Tank dəstələri və təyyarə eskadrilyaları yaratmaq üçün əhalinin vəsaitindən 215 milyon manat pul toplanmışdı. Respublika əməkçiləri 1942-ci ildə 250 milyon manat müdafiə istiqrazına yazılmış, 1941-1943-cü illərdə cəbhəyə əvəzsiz olaraq 160,1 min müxtəlif paltar, 125 vaqon isti paltar, 1,6 milyon lazımlı əşya, 350 min bağlama göndərilmişdi.

### 7. Elm, Təhsil və İncəsənət İşçiləri Cəbhənin Xidmətində

Qələbənin əldə edilməsində Azərbaycan mədəniyyət işçilərinin, elm və mədəniyyət xadimlərinin, təhsil işçilərin, kütləvi informasiya vasitələri, mədəni-maarif müəssisələri və səhiyyə təşkilatlarının, kino və teart işçilərinin xüsusi payı var. 1941-ci ildə respublikada 76 hərbi hospital yaradılmışdı. Naxçıvan, Şuşa, Şəki, Hacıkənd, Mərdəkan və Buzovnada yerləşən sanatoriyalar, istirahət evləri hərbi hospitallara çevrilmişdi.

Müharibə illərində respublikada donor hərəkatı genişlənmiş, respublikanın 149.170 vətəndaşı donorçu olmuş, 1941-1943-cü illərdə Azərbaycan donorları 28 min litr 5,5 qan vermişlər (Qadjiyev, 1991). Donorların arasında qadınlar çoxluq təşkil edirdi. Donorlardan F.

Əliyeva, R. Şahbazova və bir çox başqaları 35 dəfədən çox qan vermişlər (İbraqimov, 1967). Ümumilikdə 1941-1945-ci illər ərzində yaralı döyüşçülər üçün cəbhəyə 41.609 litr qan göndərilmiş, 7.229 litr qanı əvəz edən preparatlar hazırlanmışdı. Tibb işçiləri xəstəxanalarda yorulmadan çalışır, yeni müalicə üsulları, yeni dərman növləri hazırlayırdılar. Müharibə dövründə əsasını qadınlar təşkil edən kitabxana işçiləri cəbhəyə kömək etmək, ordu hissələri və döyüşçülər üçün isti paltar və başqa hədiyyələr toplayıb göndərmək işində fəal iştirak etdilər. Klublar, qiraət komaları, qırmızı çadırlar və başqaları təbliğat məntəqələrində əhali arasında izahat işi apardılar. Müharibə illərində 3 milyona qədər kitabça, vərəqə, yaddaş, 100 mindən artıq şüar, 75.000 bədii şüar və 15.000 plakat nəşr edilib mədəni-maarif müəssisələri vasitəsilə əhali arasında yayıldı. Satirik plakatların sözlərini yazanlardan biri də Nigar Rəfibəyli idi. Müharibə illərində bəstəkarlar və musiqi ifaçıları adamları amansız mübarizəyə səsləyən və vətənpərvərlik mövzusunda yazılan ilk əsərlər ilə arxa və ön cəbhənin yaxın dostuna çevrildilər. Müharibə illərində rəssamlardan F. Əbdürəhmanov, K. Kazımzadə, P. Topçubaşova və Ə. Hacıyev "Azərbaycan SSR əməkdar incəsənət xadimi" adına layiq görüldü, F. Əbdurəhmanov, N. Fətullayev, L. Kərimova ordenlərlə, 40-dan artıq rəssam isə medal və fəxri fərmanla təltif olundu. Azərbaycan incəsənətinin mühüm sahələrindən olan Azərbaycan teatrları müharibə illərində səmərəli və məqsədyönlü fəaliyyət göstərdilər. M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında Mərziyə Davudova, Fatma Qədri kimi təcrübəli və peşəkar sənət ustaları ilə yanaşı Hökumə Qurbanova, Barat Şəkinskaya, Leyla Bədirbəyli kimi gənclərdən ibarət bir yaradıcılıq qüvvəsi çalışırdı.

### 7. Qadınlar Rəhbər Vəzifələrdə

Müharibə illərində xeyli Azərbaycan qadını rəhbər vəzifələrə irəli çəkilmişdir. 1944-cü ilin əvvəlində Azərbaycanda 86 qadın kolxoz sədri, 371 qadın usta, 436 qadın heyvandarlıq ferması müdiri, 537 qadın mühasib və mühasib işlədi (Novruzov, 1963, s.50). SSRİ Ali Sovetinin 22 noyabr 1943-cü il tarixli fərmanı ilə Azərbaycanın 485 kənd təsərrüfatı işçisi, 1944-cü ildə daha 160 istehsalat işçisi orden və medallarla təltif olundular. "Vətən Müharibəsi" ordeninin1-ci və 2-ci dərəcəsini alanların arasında kənd təsərrüfatının qabaqcıl qadınları vardı. Ağdam rayonunun "Bakı fəhləsi" kolxozunun sədri Xanpəri Allahverdiyeva "Qırmızı Əmək Bayrağı", kolxozcu Q.Qədırova, "Lenin" ordeni ilə təltif edilmişdilər (Pravda, 1943, 12 dekabr). Müharibə illərində Azərbaycan qadınları ictimai-siyasi fəallığı ilə də fərqləndilər. Qadınlar partiya, sovet, həmkarlar ittifaqı, komsomol və digər təşkilatlarda rəhbər vəzifələr tutdular. Müharibə illərində Azərbaycan SSR Ali Sovetinin 310 deputatından 72-si qadın, o cümlədən 52-si azərbaycanlı idi. Müharibə illərində Azərbaycan SSR Ali Soveti Rəyasət

Heyətinin katibi Kübra Fərəcova, Azərbaycan SSR Ali Sovetinin deputatları A.Əliyeva, G.Həsənova, S.Zamanova və başqaları, rayon və şəhər icra komitələrinin, kənd sovetlərinin qadın deputatları səmərəli fəaliyyət göstərmişlər.

**Nəticə**

Bəşəriyyət 1945-ci ilin 9 may gününün daim xatırlayır. Cəbhədə göstərdikləri cəsurluğa görə 176 mindən çox Azərbaycan əsgəri orden və medallarla təltif olundu, 121 nəfər keçmiş SSRİ dövlətinin ən ali hərbi mükafatı olan Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görüldülər (Azərbaycanın Qızıl ulduzları: (kitab-albom, 1975, s.14; Azərbaycan tarixi, VI cild, 2000, s.89). Lenin" ordeni ilə təltif olunan 16 təyyarəçi azərbaycanlı idi (Abbasov,1975). 30 əsgər "Şöhrət ordeni" nin üç dərəcəsinin tam kavaleri oldu. Azərbaycanlı döyüşçülər Fransa, İtliya və digər Avropa dövlətlərin orden və medallarını aldılar (Məktublar, 2009). İkinci dünya müharibəsinin başa çatmasından 80 il yaxın vaxt keçməsinə baxmayaraq Azərbaycan xalqı qələbənin əldə edilməsində və dünya xalqlarını faşizm təcavüzündən xilas edilməsində canlarını qurban vermiş həmvətənlərimizin parlaq xatirəsini, Azərbaycan xalqının göstərdiyi döyüş qəhrəmanlığını, xalqımızın arxa cəbhədəki fədakar əmək rəşadətini bu gün də qəlblərində yaşadır.

Azərbaycan xalqı döyüş cəbhələrində qəhrəmanlıq göstərən Məryəm İbrahimova, Leyla Məmmədova, Dilbər Təhməzbəyova, Müslümat Azaddinova, Nabat Ağayeva, Nigar Məmmədova, Qumru Teymurova, Nadejda Gülməmmədova, Pakizə Hacıyeva, Səkinə Vəliyeva, Zinaida Səlimova, Məryəm Bağırova, Sara Məmmədova, Taciyə Qazıyeva, Aida Məmmədova, Qalina Səfərova, Firuzə Günəşli, Nabat Həşimova, Məryəm Göyçayeva, Səfiyyə Sultanova, Xalidə Məmmədova, Xədicə Əsgərova, Şeyda Səmədova, Südabə Məmmədova və Firuzə Seyidovanın, döyüş yolunu Berlində başa vurmuş Həlimə Rzayeva, Səlimə Əlizadə və anası Bəyim Əlizadə, Səkinə Bayramova, Nəsibə Qayibova, Zəhra Səlimova, Sona Ağayeva, Məryəm Bağırova, Zərifə Camalbəyova, Bikə Gözəlova, Suğra Rəcəbova, Zöhrə Səlimova, Böyükxanım Bağırova, Əminə Xəlilova və onlarca başqalarının xatirəsini hörmətlə yad edir. Mərd Rusiya Federasiyasının, Avropanın ayrı-ayrı bölgələrində uyuyan Azərbaycan qızlarının xatirəsini yerli əhali səmimi hisslərlə yad edir.

Azərbaycan xalqı öz şanlı qızlarının - partizan Aliyə Rüstəmbəyova, pilot Züleyxa Seyidməmmədova, snayper Ziba Qəniyeva, zenitçi Almas İbrahimova, rəbitəçi Suğra Paşayeva, baş leytenant Rəqimə Babayeva, Şəfiqə Əhmədova, Züleyxa Rzayeva, Şəfiq Əhədova, Mədinə Əhmədova, Lidiya Nəzərova, Mədinə Hacıyev, Zəhra Səlimova, Səkinə Bayramova, Böyükxanım Mircavadova, Biki Gözalova, Səkinə Əliyeva, Suğra Tağıyeva, Səlimə Əlizadə, Şuriya Əlizadə, Dürrə Məmmədova - Kosmodemyanskaya, Fəridə Vəzirova,

Qumru Teymurova, Raifə Həsənova, Tamara Əfəndiyeva, Sara Talışxanova, Rəşidə Qasım-zadə və başqalarının xatirəsini daim əziz saxlayır.

Azərbaycan qadınları 2020-ci ildə 44 günlük II Qarabağ-Vətən müharibəsində işğal altında olan torpaqların düşməndən azad olunmasına öz layiqli töhfələrini vermişlər. Azərbaycanın Milli Qəhrəmanları - Qarabağ cəbhəsində həlak olan jurnalist Salatın və həkim Gültəkin Əsgərovalar, Qarabağ müharibəsi şəhidi - Qaratel Şəmi qızı Hacımahmudovanı, I Qarabağ müharibəsinin döyüşçü qadınları Vəfa Mansurova, Aliyə Piriyeva, Aygün Şirinova, Cəvahir Abdullayeva, Dilarə İbadova, Diləfrusz Hidayətova, Elmira Rəsulova, Firəngiz Səttarova, Gülarə Musayeva, Gülbahar Heydərova, Mərziyə Piriyeva, Mina Məmmədova, 44 günlük II Qarabağ-Vətən müharibəsinin ilk qadın hərbçisi Arəstə Baxışova və başqalarının qəhrəmanlığı Azərbaycan qadınlarının vətən sevgisinin zirvəsi idi.

## Kaynaklar

Abbasov, A. A. (1975). Na krılyax mujestva. İzdatelstvo Elm.

Alıcanov, M. (1975). *Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər).* Elm nəşriyyatı.

Aliyev, N. M. (1979). *Sokolı Azerbaydjana.* Azernəşr.

Alizade, S. Zhenshchiny v Velikoy Otechestvennoy voyne.http://vesti.az/news/243709
AMEA TİEA, f.1. siy. 11, iş 5080, s.26.

AMEA TİEA. *Cəbhədən məktublar*. qovluq 9, s. 165-170.

*Azerbaydzhanskaya SSR v gody Velikoy Otechestvennoy voyny*. Tom 1 (1976).Azerbaydjanskoe Qosudarstvennoe İzdatelstvo.

Azərbaycan gəncləri qəzeti. (1969, oktyabr 11).

Azərbaycan qadını jurnalı. (1963, № 2).

Azərbaycan qadını jurnalı. (1975, №8).

*Azərbaycan Sovet Ensiklopediyası.* (1979). C. III Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası.

Azərbaycan tarixi. (2000). C. VI (aprel 1920 - iyun 1941). Elm nəşriyyatı.

*Azərbaycanın Qızıl ulduzları: (kitab-albom).* (1975). İşıq nəşriyyatı.

Bakinskiy raboçiy, 1941, 2 iyulya.

Bakinskiy raboçiy, 1943, 10 oktyabr.

Bakinskiy raboçiy, 1944, 26 noyabr.

Bakinskiy raboçiy, 1945, 20 mart.

Belyayeva, V. A. (1957 ). *Trudovoy qeroizm raboçix Azerbaydjana v qodı oteçestvennoy voynı.*Azneftizdat.

Əmrahov, M. İ. (2010). *İkinci Dünya müharibəsi.* Mütərcim nəşriyyatı.

Əmrahov, M. İ. (2015). *Mərkəzi Asiyanın türk respublikaları müharibə illərində (1941-1945-ci illər). Dərs vəsaiti.* Mütərcim nəşriyyatı.

Əmrahov, M. İ. (2021). *Azərbaycan SSR İkinci Dünya müharibəsində.*İdeal-Print MMC nəşriyyatı.

İbraqimov, M. A. (1967). *Zdravooxranenie Sovetskoqo Azerbaydjana.* Meditsina.

İmanquliyev, N.(1965). Patriotizm jenşin Azerbaydjana. *Azərbaycan qadını,* 1965, № 5.

Kadırova, E. (1975). Samootverjennost azerbaydjanskix jenşin. Aqitator*, №9.*

Qadjiyev, İ. M. (1991). Uçastiye jenşin v obşestvenno-politiçeskoy i kulturnoy lizni Azerbaydjanskoy respubliki s qodı Velikoy Oteçestvennoy voynı (1941- 1945 qq.). *Avtoreferat kand.ictor. nauk.*

*Qrif sekretnosti snyat:Poteri Voorujennıx Sil SSSR v voynax, boevıx deystviyax i voennıx konfliktax: Stat.İssledovaniya (Pod red.)Q.F.Pivoşeeva).* (1993). Voyennoe izdatelstvo.

*Məktublar - 1941-1945-ci illər müharibəsinin canlı tarixidir. (Məktublar və sənədlər toplusu). Писма- Живая история войны1941-1945 гг.* (2009). Elm nəşriyyatı.

Məmmədov, S. S. (1988). *Azərbaycanın şanlı qızları.* İşıq nəşriyyatı.

Mirvarid, D. (1972). *Partizan Aliyə.* Azərbaycan jurnalı, № 9.

Murmantseva, V. S. (1979). *Sovetskie jenşinı v Velikoy Oteçestvennoy voyne.* Mısıl.

Novruzov, T. (1963). *Trudovıe podviqi kolxoznoqo krestyanstva Azerbaydjana v qodı Velikoy Oteçestvennoy voynı.* İzdatelstvo AN Az. SSR.

Pravda, 1943, 12 dekabr.

Sarkisov, A. (1976). *Boyevıye podruqi.* İzdatelstvo Azerneşr.

Sultanov, Ç. (2016). *Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər (rus dilindən tərcümə).*TEAS Press Nəşriyyat Evi.

Şərq qadını, 1938, №5.

Velikaya Oteçestvennaya voyna 1941-1945. Ensiklopediya. (1985). *İzdatelstvo Sovetckaya ensiklopediya.*

*Velikaya pobeda 1941- 1945. Rek. biblioqr.ukaz.* (1979). *İzdatelstvo sovetskoqo Soyuza). (1970).* İzdatelstvo Kniqa.

*Vtoraya mirovaya voyna: İtoqi i uroki (1985).* İzdatelstvo Voenizdat.